DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (316) / NOYABR 2017-Cİ İL

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkiyə xarici işlər naziri ilə birlikdə bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində iştiraklarını məmnunluqla xatırlayıb. Azərbaycanın və Türkiyənin regional əməkdaşlığa verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev bu baxımdan bütün üçtərəfli əməkdaşlıq formatlarında ölkələrimizin iştirak etməsinin önəmini qeyd edib və bildirib ki, bu, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edən təşəbbüslərdir. Dövlətimizin başçısı bu gün keçirilən Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli görüşünü də yaxşı hadisə kimi dəyərləndirib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Mövlud Çavuşoğlu bir ay bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə bağlı keçirilən mərasimlərdə iştiraklarını xatırlayıb və bu tədbirdən Türkiyənin qürur duyduğunu vurğulayıb. O, gələcəkdə Azərbaycanın Türkiyə ilə birgə həyata keçirəcəyi böyük layihələrin, o cümlədən TANAP layihəsinin önəmini qeyd edib. Mövlud Çavuşoğlu iki dövlət başçısının liderliyi sayəsində ikitərəfli münasibətlərimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğulayıb. Qonaq Azərbaycan və Türkiyənin iştirakı ilə üçtərəfli formatda həyata keçirilən iş birliyinin regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə, bölgədə sabitliyin və iqtisadi inkişafın genişləndirilməsinə xidmət etdiyini deyib.

Söhbət zamanı "Asiyanın Qəlbi – İstanbul Prosesi" konfransının Azərbaycanda keçirilməsinin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyənin Prezidentinə çatdırmağı xahiş edib.

## "GƏNCLƏR VƏ DİNİ İCMALAR: ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF"

Noyabrın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gənclər və dini icmalar: əməkdaşlıq və inkişaf" mövzusunda konfrans keçirilib.

Konfransda Dövlət Komitəsi və Gənclər Fondunun rəhbərliyi, millət vəkilləri, dini icma sədrləri və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.



DQİDK sədri Mübariz Qurbanlı mövzunun əhəmiyyətindən danışaraq bildirib ki, Dövlət Komitəsi dini radikalizmə qarşı mübarizədə müxtəlif qurumlarla, o cümlədən gənclər təşkilatları ilə sıx əməkdaşlıq edir. Dini xurafat, dini radikalizm və ekstremizmə qarşı mübarizədə təbliğat işinin daha yüksək səviyyəyə qaldırılmalı olduğunu diqqətə çatdıran M.Qurbanlı Qafqaz Müsəlmanları İdarəsi və Dövlət Komitəsinin müxtəlif dövlət qurumları ilə birlikdə bu sahədə geniş proqram həyata keçirdiyini vurğulayıb.

Azərbaycanda din amilindən istifadə edərək hər hansı formada qarşıdurma yaratmaq və yaxud ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərməyin mümkün olmadığını bildirən Dövlət Komitəsinin sədri Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasəti uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu söyləyib. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edildiyini bildirən Mübariz Qurbanlı bunu ölkə başçımızın dinimizə və mənəvi dəyərlərimizə növbəti diqqət və qayğısı kimi dəyərləndirib.

Daha sonra çıxış edən Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi altı il ərzində respublikamızın müxtəlif bölgələrində 4 minə yaxın layihəni maliyyələşdirdiyini vurğulayıb. Natiq bunların sırasında dini dözümlülük, tolerantlıq və dini maarifləndirmə ilə bağlı layihələrin olduğunu da diqqətə çatdırıb.

Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov çıxışında bildirib ki, dünyada baş verən münaqişələrin fonunda Azərbaycan dövlətinin dini konfessiyalara olan münasibəti olduqca təqdirəlayiqdir. Prezident İlham Əliyev tərəfindən elan edilən "İslam Həmrəyliyi İli"nin sülhə xidmət etmək baxımından bir başlanğıc olduğunu vurğulayıb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsi sədrinin müavini Sevinc Fətəliyeva isə bildirib ki, dünayada gedən proseslər, münaqişələr, terrorizm və dini ekstremizm halları müəyyən formada gənclərə öz təsirini göstərir.

Tədbirdə, həmçinin Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, Azərbaycan Respublikasında Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, "Asan Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyinin sədri Bəxtiyar İslamov və digərləri çıxış ediblər.

Həmçinin Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Gənclər Fondu arasında Birgə Əməkdaşlıq haqqında Memorandum imzalanıb.

# SANKT-PETERBURQDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ KONFRANS KEÇİRİLİB

Noyabrın 23-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində "Rusiya-Azərbaycan: sülh, təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi" mövzusunda konfrans keçirilib.

Prezident İlham Əliyevin elan etdiyi "İslam Həmrəyliyi İli" çərçivəsində Bakıda, Helsinkidə, Tehranda, İstanbulda, Daşkənddə və Madriddə keçirilmiş beynəlxalq tədbirlərin ardınca Sankt-Peterburqda baş tutan bu konfransda Milli Məclisin deputatları, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) institut rəhbərləri, din xadimlərindən ibarət geniştərkibli nümayəndə heyəti iştirak edib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ), Sankt-Peterburq Dövlət Universitetinin, Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb regionu üzrə Ruhani İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən konfransın əvvəlində müqəddəs Qurani-Kərimdən ayələr oxunub.

Tədbirdə çıxış edən QMİ sədri şeyxülislam Allahşükür Paşazadə iştirakçılara Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. Şeyxülislam bildirib ki, dövlətimizin başçısının qlobal səviyyədə ümumbəşəri və dini dəyərlərin müdafiəçisi kimi çıxış etməsi, "Multikulturalizm ili"nin ardınca 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi beynəlxalq müstəvidə ksenofobiya, islamofobiyanın aradan qaldırılması işinə güclü təkan verir. Rusiya Federasiyasında da ənənəvi dinlərə hər zaman diqqət və dəstəyin olduğunu vurğulayan A.Paşazadə qeyd edib ki, Rusiya üçün İslam dünyasına, müsəlman mədəniyyətinə hər zaman ehtiramlı münasibət səciyyəvi olub və bununla da bu ölkə dünya miqyasında müsəlmanların inam və hörmətini qazanıb.

A.Paşazadə vurğulayıb ki, Rusiya və Azərbaycan prezidentlərinin xalqlarımız və dövlətlərimiz arasında qarşılıqlı səmimi münasibətlərin inkişafı naminə səyləri ölkələrimizdə çox müsbət qarşılanır. O, Rusiya Patriarxı Kirillə bərabər Azərbaycanın və Rusiyanın dini liderləri, MDB Dinlərarası Şurasının həmsədrləri olaraq MDB məkanında çoxkonfessiyalı və çoxmillətli cəmiyyətin birliyinin qorunub saxlanılmasını vacib vəzifə kimi qarşılarına məqsəd qoyduqlarını diqqətə çatdırıb.

Allahşükür Paşazadə, həmçinin yaşadığımız regionun sabitliyinə və tərəqqisinə böyük əngəl olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunub, problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyinə diqqət çəkib.

Sonra Rusiya Federasiyası Federasiya Şurası sədrinin müavini, ikitərəfli komissiyanın həmsədri İlyas Umaxanov Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonun konfrans iştirakçılarına müraciətini oxuyub. Həmçinin Moskva və bütün Rusiyanın patriarxı Kirillin tədbir iştirakçılarına müraciəti səsləndirilib. Daha sonra isə Sankt-Peterburqun qubernatoru Georgi Poltavçenkonun müraciəti oxunub.

Konfransda çıxış edən Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu tədbirin böyük əhəmiyyət daşıdığını vurğulayıb, bir müddət əvvəl Moskvada keçirilən dini liderlərin görüşünü xatırladıb. Səfir vurğulayıb ki, bu gün Rusiyanın şimal paytaxtında keçirilən bu beynəlxalq konfrans xalqlarımız və ölkələrimiz arasında mehriban dostluq əlaqələrinin yüksək səviyyədə olduğunu göstərir.

Konfrans çərçivəsində keçirilən plenar iclasda çıxış edən DQİDK sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərindən danışıb. Komitə sədri deyib ki, Azərbaycanda dini sabitlik hökm sürür. Burada bütün dinlərin nümayəndələri sakit, rahat həyat sürürlər. Azərbaycanda 28 qeyri-İslam dini icması fəaliyyət göstərir. Onlardan 17-si xristian dininin müxtəlif cərəyanlarına aiddir. Ən böyük qeyri-İslam dini icması Rusiya Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasıdır. Azərbaycan, eyni zamanda qədim kilsələrdən birinin - Alban Kilsəsinin vətənidir. Alban udiləri tarixi Qafqaz Albaniyasının nəslindəndir və bugünədək bizim ölkədə yaşayırlar. Azərbaycanda tarixən formalaşmış tolerant adət-ənənələr sayəsində udilər müsəlmanlar arasında öz doğma dillərini, dini xüsusiyyətlərini qoruyub saxlaya biliblər.

Plenar iclasda "Rusiya-İslam Dünyası" Strateji Baxış Qrupunun koordinatoru Veniamin Popov, Şimali Qafqaz Müsəlmanlarının Koordinasiya Mərkəzinin sədri, müfti İsmayıl Verdiyev, Milli Məclisin deputatı, Azərbaycandakı Rus İcmasının sədri Mixail Zabelin, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru Vitali Naumkin, akademiyanın Əlyazmalar İnstitutunun direktoru İrina Popova və AMEA-nın Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli çıxış ediblər.

Tədbir çərçivəsində QMİ ilə Sankt-Peterburq və Rusiyanın Şimal-Qərb Regionu üzrə Ruhani İdarəsi arasında əməkdaşlığa dair razılaşma imzalanıb.

# Dövlət Komitəsinin sədri İslam Əməkdaşlığı Təşkilatının Baş katibi ilə görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı noyabrın 1-də Ciddə şəhərində İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Useymin ilə görüşüb.



Görüşdə Azərbaycan Respublikası ilə İslam Əməkdaşlığı Təşkilatı arasında əlaqələrin yüksək səviyyədə olduğu bildirilib, əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Dövlət Komitəsinin sədri İƏT-in baş katibinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını çatdıraraq və qeyd edib ki, Azərbaycan İƏT-ə üzv olduqdan sonra öz təşəbbüskar mövqeyi ilə seçilir, üzərinə düşən vəzifələri həmişə yerinə yetirir, təşkilatın prinsiplərinə uyğun işini həyata keçirir. Azərbaycan təmsil olunduğu bütün beynəlxalq platformalarda həm özünün dövlət maraqlarını, həm də İslam dünyasının ortaq mənafelərini müdafiə edir. Prezident İlham Əliyev hər fürsətdə İslam dünyasının yaşadığı problemləri dilə gətirərək onların həllində yardımçı olmağa çalışır.

Azərbaycandakı dövlət-din münasibətləri haqqında məlumat verən Mübariz Qurbanlı ölkəmizin bu sahədəki təcrübəsinin digər ölkələr üçün də nümunə ola biləcəyini vurğulayıb, bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığını diqqətə çatdırıb. O, Azərbaycanın dinlərarası dialoqun, tərəfdaşlığın dərinləşməsinə öz töhfəsini verdiyini bildirib.

2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunduğunu xatırladan Mübariz Qurbanlı bu çərçivədə DQİDK-nın QMİ ilə birgə həm Azərbaycanda, həm də beynəlxalq miqyasda keçirdiyi və keçirəcəyi çoxsaylı tədbirlər barədə məlumat verib, bu kontekstdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibini cari ilin dekabrında keçiriləcək yekun beynəlxalq konfransa dəvət edib. Azərbaycanın həm də IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsinə toxunan Komitə sədri bu idman bayramının dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə əhəmiyyətli dərəcədə stimul verdiyinə əminliyini ifadə edib.

Öz növbəsində ölkəmizə səfərini və səfər zamanı ölkə başçısı cənab İlham Əliyevlə ikitərəfli görüşünü xatırlayan İƏT Baş katibi Əhməd əl-Useymin bu səfərin onda olduqca xoş təəssüratlar yaratdığını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İƏT-in birmənalı və dəyişməz mövqeyini bir daha vurğulayıb, bu məsələdə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini bildirib.

İslam dünyasının problemləri haqqında söhbət açan Yusif bin Əhməd əl-Useymin dünyada islamofob meyillərin artmasının İslam ölkələrini narahat etdiyini söyləyib və vurğulayıb ki, belə bir dövrdə müsəlman ölkələrinin vahid istiqamətdə, komanda kimi fəaliyyət göstərməsi İslam dünyası üçün olduqca vacibdir.

Sonda İƏT baş katibi rəhbərlik etdiyi qurumun İslam dünyasının maraqlarının müdafiəsi və problemlərinin həlli sahəsində fəaliyyətinə hərtərəfli dəstəyə görə Azərbaycan Respublikasına və Prezidentinə təşəkkürünü bildirib, Azərbaycan Prezidentinin fəaliyyətinin, onun daxili və xarici siyasətinin, İslam dünyasının problemlərinə göstərdiyi diqqətin təqdirəlayiq olduğunu bir daha diqqətə çatdırıb.

# MADRİDDƏ: "İSLAM HƏMRƏYLİYİ VƏ DİNLƏRARASI DİALOQUN SÜLHƏ VƏ MULTİKULTURAL HƏYATA TÖHFƏSİ"




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi "İslam Həmrəyliyi İli" çərçivəsində noyabrın 6-da İspaniyanın paytaxtı Madriddə "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları Rafael Hüseynov, Hikmət Məmmədov, Bakı Dövlət Universitetinin (BDU) rektoru Abel Məhərrəmov, həmçinin ənənəvi dini konfessiyaların başçıları - Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein və Azərbaycanda katolik icmasının başçısı Vladimir Fekete daxildir.

DQİDK, QMİ, İspaniyanın Ədliyyə Nazirliyi və Evsen Fondunun birgə təşkilatçılığı ilə keçirilən tədbirdən əvvəl yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri üçün mətbuat konfransı təşkil olunub. Daha sonra konfrans öz işinə başlayıb.

Konfransı açıq elan edən "Evsen Group"un rəhbəri Əli Evsen tədbirin əhəmiyyətindən danışıb.

İspaniyanın ədliyyə naziri Rafael Katala Polo bu tədbiri sülhə inamın artmasına daha bir addım kimi qiymətləndirib. O qeyd edib ki, sülhü bərqərar etmək təkcə hakimiyyətin və dövlətin işi deyil, sivil cəmiyyətlər də bunun üçün çalışmalıdırlar. İspaniyada daim xristianlar, müsəlmanlar və yəhudilər mehriban şəraitdə yaşayıblar. Təəssüf ki, bəzən mənfi hallarla rastlaşırıq, lakin bu, ümumi mənzərəyə zərər vurmur.

İsrailin sosial bərabərlik naziri Gila Gamliel insanları birləşdirən dəyərlərdən bəhs edib. O vurğulayıb ki, İsrail hökuməti Suriyadakı müharibədən əziyyət çəkənlərə 1 milyon dollar məbləğində yardım edib.

Madrid arxiyepiskopu Antonio Mariya Rouko Varela isə çıxışında din xadimlərinin dünyada sülhün bərqərar olmasındakı rolundan danışaraq bu işin əslində hansı məsuliyyətləri daşıdığına toxunub.

Şeyxülislam Allahşükür Paşazadə beynəlxalq konfrans iştirakçılarına, İspaniya xalqına və dövlətinə Azərbaycan Prezidenti İlham Əliyevin salamını və xoş arzularını çatdıraraq tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Mötəbər tədbirdə müxtəlif dini konfessiyaları təmsil edən dəyərli şəxsiyyətlərlə birlikdə olmağın, fikir mübadiləsi aparmağın çox xoş olduğunu deyən şeyxülislam son zamanlar dünyada baş verən faciəvi hadisələrin dini və milli zəmində ekstremizmin tüğyan etməsinə təkan verdiyindən təəssüfləndiyini vurğulayıb. O bildirib ki, törədilən silsilə terror aktları, insan qırğını, maddi və qeyri-maddi mədəni irsin məhvi, separatizm, ksenofobiya, islamofobiya təzahürləri sivilizasiyalar arasında qütbləşməni dərinləşdirən, dinlərarası və millətlərarası dialoqa vurulan ciddi zərbədir.

Lakin yaşanan böhranlara baxmayaraq, hələ də dünyamızı məhvərindən çıxmağa qoymayan əbədi mənəvi dəyərlərin mövcud olduğunu qeyd edən A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi istər Multikulturalizm, istər İslam Həmrəyliyi illərinin ümumi, bəşəri məramlara xidmət etdiyini xatırladıb. Onun sözlərinə görə, bu, tarix boyu Şərq ilə Qərb arasında körpü olmuş Azərbaycan dövlətinin dünyada gedən proseslərə özəl, dəyərli töhfəsidir.

Bütün problemlərin fövqündə duran sülhün qorunması işində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığının vacib olduğunu vurğulayan şeyxülislam uzun illər davam edən, regionumuzda və dünyada sülhə təhdid olan bütün mövcud münaqişələrin ədalətli sülh yolu ilə həllini tapması üçün siyasi xadimlərin, dini liderlərin, dünya ictimaiyyətinin səylərini artırmasını zəruri hesab edib. QMİ sədri bildirib ki, separatizmdən uzun illər əziyyət çəkən xalq olaraq, biz dünyanın müxtəlif nöqtələrində zühur edən separatizm kabusunun bütün formalarını qətiyyətlə pisləyirik.

İsrailin baş sefard ravvini Şlome Moşe Amar terrorla mübarizə üçün dini konfessiyaların birliyinin əhəmiyyətini vurğulayıb.

DQİDK sədri Mübariz Qurbanlı çıxışında İslam həmrəyliyi ideyasını günün aktual ideyası adlandırmaqla yanaşı, bunun heç bir halda başqa mədəniyyətlərə qarşı yönəlmədiyini vurğulayıb. Burada əsas məqsəd müsəlman ölkələrində daxili sabitlik zəminində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsidir ki, bu da təkcə İslam dünyasında deyil, bütün dünyada sülhün və rifahın təmin olunmasına böyük töhfə verə bilər.

BDU-nun rektoru Abel Məhərrəmov rəhbərlik etdiyi ali təhsil ocağının bütün fakültələrində multikulturalizm fənninin tədris edildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Universitetdə ilahiyyat fakültəsi var və burada dünyanın bütün dinləri ilə bağlı dərslər keçirilir. Bundan başqa, Universitetdə İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzi fəaliyyət göstərir, İslam dini ilə yanaşı, digər dinlərlə bağlı maraqlı tədqiqatlar aparılır.

Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmov isə çıxışında Madriddə keçirilmiş tədbirin əhəmiyyətini bir daha vurğulayıb, insani dəyərlərin vacibliyini önə çəkib.

Konfransda Moskva Patriarxlığının xarici kilsə əlaqələri şöbəsi rəhbərinin müavini Arximandrit Filaret, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov, Milli Məclisin deputatı Rafael Hüseynov, İspaniyanın keçmiş daxili işlər naziri Xorxe Fernandez Diaz, İspaniya Müsəlmanları Cəmiyyətinin sədri Riay Tatari Baki çıxış ediblər.

Tədbir çərçivəsində mövzuya uyğun rəsm əsərinin təqdimatı olub. Konfrans iştirakçılarına Evsen Fondunun prezidenti Əli Evsenin müəllifi olduğu "İnsanlıq tarixi" kitabı, həmçinin ötən il Madriddə "Multikulturalizm ili" ilə bağlı keçirilmiş birgə beynəlxalq konfransın materiallarını əks etdirən nəşr paylanılıb.

Tədbirin rəyasət heyətində təmsil olunan şəxslərə səmavi dinlərin birliyini simvolizə edən rəmzi xatirə hədiyyələri təqdim olunub.

Konfransda dinlərarası ortaq Memorandum imzalanıb.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİ: MÖVCUD VƏZİYYƏT VƏ İMKANLAR"



Noyabrın 10-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Dini maarifləndirmə işi: mövcud vəziyyət və imkanlar" mövzusunda konfrans keçirilib.

Tədbirdə DQİDK və Bakı İslam Universitetinin rəhbərliyi, universitetin müəllim-tələbə heyəti, eləcə də dini sahədə fəaliyyət göstərən ekspertlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı açan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini maarifləndirmə işinin əhəmiyyətindən danışıb. Din xadimlərinin milli-mənəvi dəyərlərimizin təbliğində mühüm rola malik olduğunu deyən sədrin birinci müavini bu gün Azərbaycanda əvvəlki illərdən fərqli olaraq savadlı, müasir ruhlu, müasir düşüncəli, eyni zamanda İslamı bir elm kimi dərindən mənimsəyən və bu istiqamətdə də təbliğ edən milli kadrlarımızın formalaşdığını dilə gətirib. Sədr müavini Dövlət Komitəsinin Qafqaz Müsəlmanları İdarəsi və digər aidiyyati qurumlarla birgə həyata keçirdiyi maarifləndirmə tədbirlərinin önəmindən bəhs edib. O, eyni zamanda ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə Prezident İlham Əliyevin imzaladığı Sərəncamın əhəmiyyətinə toxunub. Maliyyə vəsaiti hesabına respublikanın bütün bölgələrində maarifləndirmə tədbirlərinin keçirildiyini, kitabların nəşr ounduğunu qeyd edib.

Bakı İslam Universitetinin prorektoru Elçin Həsənli öz çıxışında dini maarifçilik işinin aparılması, dini dəyərlərimizin cəmiyyətə çatdırılması sahəsində milli kadrların yetişdirilməsinin önəminə toxunub. Prorektor universitetin din sahəsi üzrə mütəxəssis kadrlar yetişdirdiyini və onların dövlət-din münasibətlərinin tənzimlənməsində mühüm rol oynadıqlarını deyib. Həmçinin o, Prezident İlham Əliyevin Fərmanı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasının mənəvi dəyərlərin qorunması və inkişafı baxımından böyük önəm daşıdığını vurğulayıb.

Daha sonra Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov konfransın mahiyyətini özündə ehtiva edən təqdimatla çıxış edib. Sədr müavini bildirib ki, bəzən dini maarifləndirmə dedikdə yalnız zərərli dini cərəyan və təriqətlərlə mübarizə nəzərdə tutulur. Bu, səhv yanaşmadır. İnsanlar zərərli dini cərəyanlardan və qeyri-ənənəvi təriqətlərdən də məlumatlı olmalıdırlar, amma paralel şəkildə əsl dinin nə olduğunu da bilməlidirlər. Ən düzgün maarifləndirmə metodologiyası səhvlə yanaşı, doğrunu da göstərməkdir.

Konfrans tələbələri maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"




Noyabrın 29-da Neftçaladakı Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) rayon icra hakimiyyəti (RİH) ilə birgə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirib.

Konfransda rayonun rəhbər işçiləri, idarə-müəssisə rəhbərləri, Dini İşlər üzrə Komissiyanın üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları, dini icma sədrləri, eləcə də din xadimləri iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filminə baxıblar.

Neftçala RİH başçısı İsmayıl Vəliyev tədbirdə çıxış edərək, "İslam Həmrəyliyi İli" çərçivəsində rayonda keçirilən tədbirlər barədə məlumat verib. Görülən işlərin dini qurumlarla dövlət təşkilatları, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb etdiyini bildirib.

DQİDK sədri Mübariz Qurbanlı çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi dövlətimizin başçısının islami dəyərlərə həssas münasibətindən irəli gəlir. Müasir dövrdə İslam dünyasının həmrəyliyinə daha çox ehtiyacın olduğunu diqqətə çatdıran Komitə sədri bildirib ki, bu həmrəyliyi yaratmaq, bununla bağlı müəyyən addımlar atmaq üçün belə bir çağırış böyük önəm daşıyır.

Mübariz Qurbanlı "İslam Həmrəyliyi İli" çərçivəsində müsəlman ölkələri arasında əlaqələrin genişləndirilməsi istiqamətində həm respublika daxilində, həm də bir sıra ölkələrdə müxtəlif tədbirlərin keçirilməsinin milli-mənəvi və islami dəyərlərin qorunması istiqamətində aparılan işlərə töhfə olduğunu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov isə öz çıxışında bölgələrdə cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz haqqında sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması istiqamətində həyata keçirilən dini maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edib.



Konfransın ikinci hissəsində "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda müzakirələr aparılıb.

RİH nümayəndəsi Elnur Bağırov məruzəsində ölkəmizdə dövlət-din münasibətlərinin formalaşmasından, dövlətin din sahəsinə qayğısından danışıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini radikalizmə qarşı mübarizədə ardıcıl, sistemli və intensiv maarifləndirmənin mühüm rol oynadığını vurğulayıb. Sədr müavini qeyd edib ki, bu sahədə yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliği mühüm rol oynayır. Çünki ənənəvi İslam dinin siyasiləşməsinə, bölücülüyə haqq qazandırmır. G.İsmayılov zərərli dini təbliğatdan qorunmaq üçün hər kəsin, xüsusilə gənclərin ümumi dini biliklərə malik olmasının önəminə toxunub.

Sonra DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov təqdimat ilə çıxış edib. Təqdimatda dövlətimizin İslamın dəyərlərinə və irsinə qayğısı barədə göstəricilər əksini tapıb.

Tədbirin sonunda gəncləri maraqlandıran suallar cavablandırılıb.

# Dövlət Komitəsində görüşlər



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı noyabrın 7-də İsveç Krallığının Azərbaycandakı səfiri İngrid Tersman və səfirliyin müvəqqəti işlər vəkili Kristian Kamil ilə görüşüb.

Görüşdə dövlətimizin müxtəlif dini icmalara münasibətdə həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verən S.Salahlı bu istiqamətdə tarixən formalaşmış milli-mənəvi dəyərlərdən söz açıb, müxtəlif dini icmaların birgəyaşayış nümunəsindən danışıb. O bildirib ki, dünyada müxtəlif münaqişələrə tez-tez rast gəlindiyi bir dövrdə Azərbaycanda bu vaxta qədər dini zəmində heç bir qarşıdurma yaşanmayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir ölkəmizdəki multikultural və tolerant mühitin, dinlərarası harmoniyanın əyani şahidi olduğunu deyib. İkitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini ifadə edən İngrid Tersman bu sahədə 28 və 29 noyabr tarixlərində İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Qoransonun rəhbərliyi ilə İsveç nümayəndə heyətinin Azərbaycana edəcəkləri səfərin xüsusi önəm kəsb etdiyini bildirib. Nümayəndə heyətinin tərkibində İsveçdə fəaliyyət göstərən müxtəlif dini konfessiya rəhbərlərinin təmsil olunduğunu qeyd edən diplomat sözügedən səfərin dini sahədə mövcud münasibətlərin qorunub saxlanılması və inkişaf etdirilməsi, təcrübə mübadiləsi baxımından əhəmiyyətli olacağına ümidvar olduğunu deyib.

Görüşdə, eyni zamanda hər iki tərəf üçün maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***

Noyabrın 28-də isə ölkəmizdə səfərdə olan İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Qoransonun rəhbərlik etdiyi nümayəndə heyəti Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüb.

DQİDK-nın sədri qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri haqqında məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyevin ölkədəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində multikulturalizm siyasətinə yüksək önəm verməsinin nəticəsində Azərbaycan dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilib. Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. O, eyni zamanda ölkəmizdə 17-si xristianlığa aid olmaqla 28 qeyri-İslam dini icmasının fəaliyyət göstərdiyini vurğulayıb.

Görüşdə Mübariz Qurbanlı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub. O, Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, İslam dininə aid olan bütün tarixi abidələrin, o cümlədən məscid və ziyarətgahların ermənilər tərəfindən dağıdıldığını bildirib.

Mübariz Qurbanlı rəhbərlik etdiyi nümayəndə heyəti ilə ötən ilin aprelində İsveçə səfər etdiyini, bu ölkədəki dini abidələr, dini icmaların fəaliyyəti üçün yaradılan şəraitlə yaxından tanış olduğunu xatırladıb.

İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Qoranson dövlət-din münasibətlərinin tənzimlənməsində təcrübə mübadiləsinin önəmindən danışıb. Bildirib ki, son illər qlobal aktuallıq kəsb edən miqrant axını öz ölkəsində din adı altında bir sıra problemlərin yaranmasına gətirib çıxarıb. Qonaq bütün dini konfessiyaların birgə sülh və əmin-amanlıq şəraitində yaşamaları üçün dini icmalarla dövlət arasında dialoqun gücləndirilməsinin vacibliyini qeyd edib.



Görüşdə iki ölkə arasında dini və mədəni sahədə qarşılıqlı əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsi, radikal dini qruplaşmalara qarşı mübarizə, ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdirilməsi istiqamətində birgə fəaliyyətin davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Sonda Mübariz Qurbanlı Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi "Azərbaycanın seçilmiş İslam abidələri", "İşğal altındakı tarixi-dini abidələrimiz", "Azərbaycanda dini müxtəliflik" kitablarını qonaqlara təqdim edib.

Qeyd edək ki, görüşdə İsveçin Azərbaycandakı səfiri İnqrid Tersman, səfirliyin müvəqqəti işlər vəkili Kristian Kamil, İsveç Xarici işlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya İdarəsində Cənubi Qafqaz üzrə kurator Qustav Vinstrand da iştirak ediblər.

# Dövlət Komitəsinin sədri Neftçalada vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, noyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Neftçalada vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK-nın sədri Mübariz Qurbanlı və Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.



Heydər Əliyev Mərkəzində keçirilən qəbulda komitə sədri Mübariz Qurbanlı Neftçala, Şirvan, Hacıqabul, Salyan və Biləsuvar rayonlarının sakinlərinin müraciətlərini dinləyib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, dini icmaların dövlət qeydiyyatı, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri, Quran kurslarının təşkil edilməsi, məscidlərin dini təyinatlı kitablarla təminatı və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB



Noyabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədr müavinləri, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Müşavirəni giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinin sağlam prinsiplər üzərində qurulduğunu deyib. Səyyad Salahlı gündəlikdəki məsələlər, planlaşdırılan tədbirlər və qarşıda duran vəzifələr barədə məlumat verərək qeyd edib ki, dini durumun tənzimlənməsi baxımından bu cür müşavirələr xüsusi əhəmiyyət kəsb edir.

Gündəliyə uyğun olaraq, əvvəlcə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyevin məruzəsi dinlənilib. O, bölgədəki dini vəziyyətin öyrənilməsi, din adı altında qanunvericiliyə və milli maraqlara zidd təbliğatın aparılmasının qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla profilaktik və inzibati xarakterli işlər aparıldığını bildirib.

Daha sonra DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev şöbənin əhatə etdiyi rayonlarda dövlət-din münasibətlərinin tənzimlənməsi, dövlətin dinlə bağlı siyasətinin həyata keçirilməsi sahəsindəki görülən işlər barədə məruzə ilə çıxış edib.

Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov da məruzəsində şöbə tərəfindən müvafiq qurumlarla birgə dini ayrı-seçkilik və ideoloji cəhətdən zərərli dini ədəbiyyatın bölgədə təbliğinə cəhdlərin qarşısının alınması istiqamətində atılan addımlar haqqında məlumat verib.

Müşavirə müzakirələrlə davam edib və müvafiq tapşırıqlar verilib.

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"




Noyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bərdədə "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Müşavirədə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Bərdə Rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Fəqət Şadlinskaya, DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazısı Ramazan Hüseynov, eləcə də din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Analoji tədbir noyabrın 28-də DQİDK və Ağdam RİH-in birgə təşkilatçılığı ilə Ağdam Dövlət Sosial-İqtisad kollecində baş tutub. Tədbirdə Ağdam RİH başçısının birinci müavini Allahverən Əliyev, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ağa Zeynalov, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, rayon ictimaiyyəti, dindarlar, kollecin müəllim və tələbə heyəti iştirak ediblər.

Seminar-müşavirələrdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan olunmasının əhəmiyyətindən danışıb. Bildirib ki, müasir dövrümüzdə dini radikalizm, ekstremizm və terrorizmin ağır nəticələrindən daha çox müsəlman ölkələri əziyyət çəkir. Zəngin təbii sərvətlərə baxmayaraq müsəlman ölkələrinin iqtisadi inkişafı heç də istənilən səviyyədə deyil. Bunun da başlıca səbəblərindən biri qarşılıqlı münasibətlərin zəif olmasıdır. Prezident İlham Əliyev tərəfindən atılmış həmrəylik təşəbbüsü də müsəlman dünyasına vəhdət, həmrəylik mesajıdır.

S.Salahlı İslamın zorakılığa, terrorizmə qarşı olduğunu və insanlar arasında sevgini, hörməti, anlayışı təbliğ etdiyini vurğulayıb. O, cəmiyyət üçün təhlükəli olan zərərli dini cərəyanların qarşısının alınması üçün dini maarifləndirməyə böyük ehtiyac olduğuna diqqət çəkib və bu məqsədlə Prezident cənab İlham Əliyevin 27 noyabr 2014-cü ildə ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə imzaladığı Sərəncamı yüksək qiymətləndirib. Natiq, həmçinin İslam həmrəyliyinin təbliğində və dini radikalizmlə mübarizədə dini icmaları, din xadimlərini fəal olmağa çağırıb.



Seminar-müşavirələrin sonunda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Eyni zamanda Dövlət Komitəsi tərəfindən çap olunmuş maarifləndirici kitablar paylanılıb.

# "TOLERANTLIQ ÖRNƏYİ AZƏRBAYCAN" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB





Noyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü münasibətilə "Tolerantlıq örnəyi Azərbaycan" adlı konfrans keçirilib.

DQİDK-nın rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) rəsmi nümayəndələri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, eləcə də gənclərin iştirakı ilə baş tutan konfransda çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı cəmiyyətimizdəki mövcud tolerantlıq ənənələrindən, onun qorunub saxlanılması istiqamətində görülən işlərdən ətraflı bəhs edib. O bildirib ki, bu gün Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan digər sahələrdə olduğu kimi, dinə, vicdan azadlığına, tolerant və multikultural dəyərlərə münasibətdə nümunəvi ölkəyə çevrilib.

Tolerantlığın birgəyaşayışın qızıl qaydası olduğunu vurğulayan sədrin birinci müavini dövlətimiz tərəfindən ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalara böyük dəstək göstərildiyini, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxladıqlarını, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün lazımi şərait yaradıldığını bildirib.

Daha sonra DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədlinin təqdimatı dinlənilib. "Anlayışın koqnitiv semantikası" adlı təqdimatda müxtəlif dillərdə tolerantlıq anlayışının mənası və mahiyyəti barədə ətraflı məlumat verilib.

QMİ-nin sədr müavini Hacı Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Roma Katolik Kilsəsinin nümayəndəsi Vladimir Baksa, Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Rus Pravoslav Kilsəsi Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisi Sveçnikov, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev və BBMM-in şöbə müdiri Rəşad İlyasov çıxışlarında tədbirin əhəmiyyətini vurğulayıblar. Onlar tolerantlığın gündəlik həyatımızda mühüm rolundan bəhs ediblər.

# BAKIDA BİBLİYA GÜNÜ QEYD EDİLİB



"Azərbaycan Bibliya Cəmiyyəti"nin təşəbbüsü, ölkəmizin xristian dini icmalarının dəstəyi ilə noyabrın 24-də Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalında xristianların müqəddəs kitabına – Bibliyaya həsr olunmuş tədbir keçirilib.

"Azərbaycan Bibliya Cəmiyyəti"nin baş katibi Rasim Xəlilov tədbir iştirakçılarını bayram münasibətilə təbrik edərək onlara sülh və firavanlıq arzu edib. O vurğulayıb ki, respublikamızda artıq ikinci ildir ki, Bibliya Günü qeyd edilir. R.Xəlilov ölkəmizdəki bütün dini icmalara göstərilən dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı komitənin fəaliyyəti barədə məlumat verib, görülən işlərdən danışıb. O, Xristianlığın yaranması tarixindən söz açaraq bildirib ki, ölkəmizdə müxtəlif dinlərin nümayəndələri əsrlərboyu mehribanlıq və dostluq şəraitində yaşayıblar.

Tədbir dua mərasimi və uşaq kilsə xorunun çıxışı ilə davam edib.

# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DİN SİYASƏTİ" MÖVZUSUNDA REGİONAL KONFRANS



Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şamaxı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı Prezident Administrasiyası rəhbərinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq "Heydər Əliyev və Azərbaycanda din siyasəti" mövzusunda regional konfrans keçirilib.

Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində baş tutan konfransda rayonun dövlət qurumlarının rəsmi təmsilçiləri, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Bilik Fondunun Şamaxı rayon nümayəndəsi Gülnurə Babaşova, Ağsu rayon nümayəndəsi Elman Qarayev, İsmayıllı Bilik Evinin direktoru Sevinc Novruzova, Fondun nəzdində fəaliyyət göstərən "Gənc jurnalistlər" Klubunun və "Tariximizi öyrənək və öyrədək" Gənclər Klubunun üzvləri, təhsil işçiləri, yerli ziyalılar, tələbələr və şagirdlər iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Şamaxı RİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova "İslam Həmrəyliyi İli" çərçivəsində rayonda görülən işlərdən danışıb.

Sonra DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun məruzəsi dinlənilib. Müstəqilliyin Azərbaycana bəxş etdiyi dəyərlərdən birinin də etiqad azadlığı olduğunu deyən məruzəçi dini birləşdirici amil kimi dəyərləndirən Ulu Öndərin İslam dininə dövlət səviyyəsində qayğı göstərilməsinə, həmçinin, Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələrinə etiqad azadlığının verilməsinə nail olduğunu vurğulayıb. Bildirilib ki, dinimizi milli-mənəvi sərvətimiz adlandıran Ümummilli Liderin həyata keçirdiyi məqsədyönlü siyasət bu gün də uğurla davam etdirilir. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması da bu yolun məntiqi davamıdır.

Bilik Fondunun baş məsləhətçisi Ceyhun Musaoğlu da "İslam Həmrəyliyi İli" çərçivəsində Fondun həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib. O, maarifləndirici layihələrdə Şamaxı ziyalılarının və gənclərinin fəallığını xüsusi qeyd edərək, konfransda Fondun nəzdində fəaliyyət göstərən Klub üzvlərinin iştirakını onların Şamaxının tarixinə, abidələrinə, yerli ədiblərin yaradıcılığına marağı kimi dəyərləndirib.

Sonda Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

# "BAKI METROPOLİTENİ"NDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ ETDİRİLİB

Noyabrın 28-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində (QSC) DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

QSC-nin rəhbər və məsul şəxsləri, eləcə də metropolitenin digər işçilərinin iştirakı ilə baş tutan tədbirdə çıxış edən Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov "Şəhadət" sənədli filmi haqqında məlumat verərək bildirib ki, bu film Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunmuşdur. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edilir.




Səyavuş Heydərov öz çıxışında Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən də danışıb, bunu ölkəmizin, xüsusilə dövlətimizin başçısının dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin təzahürü kimi qiymətləndirib. Dövlət Komitəsi sədrinin müavini onu da qeyd edib ki, Prezident İlham Əliyev "İslam həmrəyliyi" çağırışı ilə yeni bir strategiya ortaya qoymuşdur. O, dünya birliyinin dövlət başçımızın çağırışlarına səs verməsini, xüsusilə Şərq Tərəfdaşlığı Sammitində qəbul olunan bəyanatlara dəyər verməsini vurğulamışdır.

Daha sonra çıxış edən "Bakı Metropoliteni" QSC sədrinin müavini Hidayət Məmmədov filmin maarifləndirmə sahəsindəki önəminə toxunub. O, "Şəhadət" sənədli filminin nümayişinin gənclərin milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu bildirib.

# "MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUNMASINDA GƏNCLƏRİN ROLU"



Noyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) "Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən ADMİU-nun rektoru, professor Fərəh Əliyeva filmin maarifləndirmə sahəsindəki önəmindən, onun gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi baxımından əhəmiyyətindən danışıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov isə öz çıxışında İslamın sülh, əmin-amanlıq dini olduğunu bildirərək qeyd edib ki, dinimizin radikalizm və ekstremizm kimi hallara alət olunması yolverilməzdir. Bu gün bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri dinlərin, məzhəblərin dinc, yanaşı yaşamasına imkan verir. Dünyada dini zəmində, eləcə də məzhəblərarası ədavətin qızışdırılması yolu ilə münaqişə ocaqlarının yaradıldığını diqqətə çatdıran S.Heydərov bildirib ki, Prezident İlham Əliyev Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan etməsi ilə bütün dünyaya həmrəylik mesajı verdi.



Respublikamızda dini maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də toxunan sədr müavini bildirib ki, DQİDK tərəfindən dini mühitdə cərəyan edən neqativ tendensiyaların qarşısının alınması, eləcə də radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədi ilə silsilə maarifləndirici tədbirlər həyata keçirilir. Natiq Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Fitnə", "Şəhadət" sənədli filmlərinin radikalizmə qarşı mübarizədə önəmli rola malik olduğunu xüsusilə vurğulayıb və hazırda DQİDK-nın sifarişi ilə "Vəhdət" adlı filmin hazırlandığını qeyd edib.

ADMİU-nun "Teatrşünaslıq" kafedrasının müdiri, professor Aydın Talıbzadə, Əməkdar artist, ADMİU-nun dosenti Məmmədsəfa Qasımov və başqaları da çıxış edərək sənədli filmin əhəmiyyətini yüksək qiymətləndiriblər.

# "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ DÖVLƏT SƏRHƏD XİDMƏTİ AKADEMİYASINDA MARAQLA QARŞILANIB



Noyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi əsasında çəkilən "Şəhadət" sənədli filmi Dövlət Sərhəd Xidməti Akademiyasında nümayiş edilib.

DQİDK və Dövlət Sərhəd Xidməti Akademiyasının rəhbərliyi, təhsil ocağının zabit və kursant heyətinin iştirakı ilə keçirilən tədbirdə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov çıxış edərək dini sahədə maarifləndirmənin radikallıqla mübarizənin əsas metodlarından biri olduğunu bildirib. Sədr müavini bu sahədə cəmiyyətdə, xüsusilə gənclər arasında milli-mənəvi dəyərlərimizin təbliğinə xüsusi önəm verilməsinin əhəmiyyətinə toxunub. Ölkəmizdə dini radikalizmə qarşı həyata keçirilən maarifləndirmə tədbirlərinin effektivliyinin artırılması, vətənpərvərliyin təbliği və təşviqi məqsədilə hazırlanan "Şəhadət" filminin önəmindən danışıb.



Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu milli siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunub və dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının sayıqlıq göstərməsinin zəruriliyi vurğulanıb.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"





Noyabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Mingəçevir Şəhər İcra Hakimiyyəti (ŞİH) ilə birgə "İslam Həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans keçirib.

Ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, müəllimlər, eləcə də şəhər ictimaiyyəti və fəal gənclərin iştirakı ilə baş tutan tədbiri giriş sözü ilə Mingəçevir ŞİH başçısının birinci müavini İlham İsmayılov açıb. O bildirib ki, Prezident İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi müasir dövrdə müstəqil siyasət aparmaq kimi çox çətin bir işin öhdəsindən öz zəngin və uzaqgörən siyasəti ilə gələn dövlət başçımızın İslam dininə, müsəlman dünyasına nə qədər böyük önəm verdiyinin bariz nümunəsidir.

DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev isə öz çıxışında bölgədə, xüsusən də Mingəçevir şəhərində mövcud olan dini durum barədə konfrans iştirakçılarına məlumat verib.

Daha sonra Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxışında bildirib ki, dini zəminli münaqişələrin baş verdiyi qlobal dünyada İslam həmrəyliyi anlayışı təkcə müsəlman aləmində deyil, eyni zamanda İslam dini ilə digər dinlər arasında həmrəyliyi nəzərdə tutur və olduqca həssas mətləblərdən xəbər verir. Müasir dövrdə Yaxın və Orta Şərqdə yaşanan neqativ hallara nəzər salsaq, dövlət başçımızın bu qərarının beynəlxalq aləmin diqqətinin mövcud problemlərə yönəltməyə çalışması baxımından çox ciddi addım olduğunu görərik.

G.İsmayılov həmçinin vurğulayıb ki, İslam həmrəyliyinin təbliği, fərqli din və məzhəb mənsubları arasında dözümsüzlük hallarına yol verilməməsi, dini icmaların fəaliyyətində tolerantlığın və multikulturalizmin gücləndirilməsi, cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması baxımından ən effektiv yol bu sahədə maarifləndirmə işinə daha çox yer ayırmaqdır.

Tədbirdə həmçinin DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov və Mingəçevir ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev çıxış edərək müsəlman aləmində həmrəyliyi vacib edən amillər barədə danışıblar.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***

Elə həmin gün DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Dövlət Sərhəd Xidmətinin Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinin komandiri Anar Əliyev, eyni zamanda zabit, gizir heyəti və əsgərlərin iştirakı ilə hərbi hissədə DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Filmin nümayişindən öncə çıxış edən Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov "Şəhadət" sənədli filminin çəkilməsini zəruri edən amillərə toxunub, filmin dini maarifləndirmə işindəki əhəmiyyətindən danışıb. Bildirib ki, sənədli film Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizmin və radikalizmin təsirinə məruz qalmış, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs edir. Bu iki müxtəlif amal uğrunda mübarizə aparmış Azərbaycan gənclərinə cəmiyyət, onların ailələri, yaxınları və dostları tərəfindən göstərilən fərqli münasibət diqqətə çatdırılır.

Hərbi hissənin komandiri Anar Əliyev filmin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə mühüm töhfə olduğunu vurğulayıb və onun ərsəyə gəlməsində əməyi keçən hər kəsə öz təşəkkürünü bildirib.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ: TƏCRÜBƏ VƏ YENİ YANAŞMA"



Noyabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini maarifləndirmə işinin təşkili: Təcrübə və yeni yanaşma" mövzusunda konfrans keçirilib. Ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat Bilgisi" fənnini tədris edən müəllimlər və rayon gənclərinin iştirak etdiyi tədbiri giriş sözü ilə Zaqatala RİH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanova açaraq rayonun ictimai həyatında aparıcı rol oynayan müəllim və gənclərlə bu mövzunun müzakirə olunmasının maarifçilik baxımından son dərəcə əhəmiyyətli olduğunu vurğulayıb.

***

Analoji tədbir noyabrın 13-də DQİDK-nın təşkilatçılığı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzində baş tutub. Tədbiri giriş sözü ilə açan Biləsuvar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Kamil Qurbanlı ölkəmizdə dini sahəyə dövlət qayğısından danışıb və bu siyasətin demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslandığını qeyd edib.



Tədbirlərdə çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov din və cəmiyyət, dövlət və din münasibətlərinin başlıca istiqamətlərinə toxunub, dövlətin dinə yanaşmasının əsas meyarlarını iştirakçıların diqqətinə çatdırıb. Müasir inkişaf yolunu tutan Azərbaycan dövlətinin milli-dini dəyərlərə böyük əhəmiyyət verdiyini bildirən Komitə rəsmisi, həmçinin, dini kimliklə milli kimliyin qarşı-qarşıya gətirilməsinin son dərəcə yanlış olduğunu, bunun nə dinə, nə də dövlətçiliyə xidmət etmədiyini vurğulayıb.

Cəmiyyətdə parçalanma yaratmaq istəyən qüvvələrin dindarlar arasında apardıqları təbliğatların əsas mahiyyətini geniş şəkildə izah edən sədr müavini dinin siyasiləşdirilməsinin, dinə xarici təsir və müdaxilələrin, dinə xidmət adı altında qadın hüquqlarının məhdudlaşdırılmasının, tolerantlığın zəiflədilməsinə, məzhəblərarası qarşıdurmanın yaradılmasına səy göstərməyin, xurafatçı meyillərin təbliği və dünyəvi təhsilə qarşı çıxışların bu təbliğatların əsasını təşkil etdiyini bildirib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov isə öz çıxışlarında respublikanın bütün rayon və şəhərlərində, cəmiyyətin bütün təbəqələrini əhatə etməklə mütəmadi olaraq keçirilən konfrans və seminar-treninqlərdən ətraflı danışaraq dini maarifləndirmə ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb. Həmçinin qeyd edib ki, son dövrlərdə beynəlxalq sferada İslam həmrəyliyinə olan ehtiyac Azərbaycan dövlətinin bu sahədə nə qədər uğurlu addımlar atdığına dəlalət edir.

Tədbirlərin sonunda iştirakçıların sualları cavablandırılıb.

# QUBADA DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ MÖVZUSUNDA İKİGÜNLÜK SEMİNAR KEÇİRİLİB



Noyabrın 17-18-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Qubada "Dini radikalizmlə mübarizədə gənclərin təşkilatlandırılması" mövzusunda ikigünlük seminar təşkil olunub.

İkigünlük seminarda DQİDK-nın rəsmiləri, elm və din xadimləri, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu ilə əməkdaşlıq edən şimal bölgəsi üzrə aktiv gənclər, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin Siyəzən, Quba, Qusar, Xaçmaz, Xızı, Şabran rayon təşkilatlarının üzvləri, həmçinin, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov seminarın məhz dini radikalizmlə mübarizə çərçivəsində şimal bölgəsinin gənclərinin potensialından daha səmərəli istifadə edilməsinə nail olmaq və fəal iştirakına şərait yaratmaq məqsədilə keçirildiyini diqqətə çatdırıb. O, din pərdəsi altında gizlənmiş məkrli qüvvələrin məqsədi, fəaliyyəti, iş metodları, real təhlükəsi barədə cəmiyyətin, xüsusilə gənclərin mütəmadi məlumatlandırılmasının önəmini qeyd edib və bu məqsədlə gənclər arasında dini maarifləndirmənin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun "İslam həmrəyliyinin dini ekstremizm və radikalizmlə mübarizədə rolu", Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin baş müəllimi Aqil Şirinovun "Dini radikalizmin yaranmasında məzhəb təəssübkeşliyi amili" mövzusunda məruzələri dinlənilib.

Seminarın ikinci günü isə DQİDK-nın sədr müavini Gündüz İsmayılov "Azərbaycanda dini məsələ: ideoloji təhdidlər müstəvisində" mövzusunda təqdimatla çıxış edib. G.İsmayılov vurğulayıb ki, ideoloji müstəvidə dinlə bağlı ən böyük problem məqsədli şəkildə dini kimliyimizin-dinimizin milli kimliyimizə-Azərbaycançılığa qarşı qoyulmasıdır. G. İsmayılov dindarlığın artması ilə məzhəbçiliyin də güclənməsi, eləcə də xurafat meyllərinin artması, dini dəhsilin dünyəvi təhsilə qarşı qoyulması, qız uşaqlarının məktəbdən uzaqlaşdırılması, dini radikalizm fikirlərinin yayılması tendensiyalarının müşahidə edildiyinə diqqət çəkərək cəmiyyətdə dinlə bağlı belə problemlərin yaranmasının arzuolunmaz hal olduğunu bildirib. Qeyd edib ki, ideoloji sahədə yaranmış bütün bu prob-lemləri həll etməyimiz üçün necə bir gənclik, necə bir nəsil yetişdirməli olduğumuz çox önəmlidir.

Daha sonra DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov "Radikallaşma prosesi: nəzəriyyə və təcrübə" mövzusunda məruzə ilə çıxış edib. Radikallaşma prosesinin baş verməsinin sosial-ictimai səbəbləri, mərhələləri haqqında geniş məlumat verən M.İsmayılov radikallaşmaya zəmin yaradan sosial, psixoloji, ideoloji səbəblərin aradan qaldırılmasının əhəmiyyətini vurğulayıb.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev də çıxış edərək, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin radikalizm meyillərinin yayılmasının qarşısının alınmasında, gənclərin dini baxışlarının düzgün istiqamətləndirilməsində böyük rol oynadığını diqqətə çatdırıb.

Seminarın sonunda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.




# "DİN-MEDİA MÜNASİBƏTLƏRİ: MÖVCUD VƏZİYYƏT VƏ BEYNƏLXALQ TƏCRÜBƏ"



Noyabrın 27-29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Mətbuat Şurası (MŞ), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Qubada "Din-media münasibətləri: mövcud vəziyyət və beynəlxalq təcrübə" mövzusunda üçgünlük seminar-treninq təşkil olunub.

KİV-lərin milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, multikultural və tolerant ənənələrimizin qorunması və təbliği prosesinə cəlb olunması, eləcə də dini mövzuya müraciət edən jurnalistlərin maarifləndirilməsi, peşəkarlığının artırılması məqsədilə təşkil edilən seminar-treninqdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, MŞ-nin sədri Əflatun Amaşov, QMİ-nin sədr müavini Qəmərxanım Cavadlı, eyni zamanda ölkənin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Seminar-treninqdə DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli "Din-media münasibətləri: beynəlxalq təcrübə" mövzusunda məruzə ilə çıxış edib. Qərb mediasında müsəlman imicinin formalaşdırılması, söz və informasiya azadlığının qorunması məsələləri barədə danışan N.Məmmədli müasir medianın, xüsusilə sosial medianın dünyada dinin rolunun dəyişməsində xüsusi yeri olduğunu vurğulayıb. Şöbə müdiri internet və televiziyanın inkişafının dinin də inkişafına, daha sürətlə yayılmasına gətirib çıxardığını qeyd edib.

Daha sonra seminar-treninq iştirakçıları üçün brifinq keçirilib.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış edərək bildirib ki, din və media münasibətləri bütün cəmiyyətlər üçün, xüsusilə Azərbaycan cəmiyyəti üçün aktualdır. O qeyd edib ki, dini maarifləndirmə işinin həyata keçirilməsində, dini radikalizm və ekstremizmlə mübarizənin təşkilində, milli-mənəvi dəyərlərin qorunması və təbliğində medianın rolu mühümdür. Sədr müavini vurğulayıb ki, təəssüf ki, bəzi radikal, məzhəbçi dini qruplar sosial şəbəkələr, internet vasitəsilə öz təbliğatlarını qurmağa çalışırlar. "Dini dözümsüzlük də əsasən xaricdən idarə olunan dini saytlar, xəbər portalları tərəfindən nümayiş etdirilir. Biz həmişə bu cür xəbər portallarına qarşı media ilə birlikdə mübarizə aparırıq", - deyə G.İsmayılov vurğulayıb.

MŞ-nin sədri Əflatun Amaşov öz çıxışında bildirib ki, bu sahədə yazan jurnalistlər dövlət-din münasibətləri, dini durum barədə kifayət qədər məlumatlı olmalı, dini məsələlərə həssas yanaşmalıdırlar. Bu baxımdan bu cür seminar-treninqlərin, Azərbaycanın dini xəritəsinin kütəvi informasiya vasitələri nümayəndələri üçün tam açılmasının böyük əhəmiyyəti var.

QMİ-nin sədr müavini Qəmərxanım Cavadlı isə Azərbaycan mətbuatının yarandığı gündən dini mövzuları daim diqqətdə saxladığını qeyd edib. Müstəqillik qazandıqdan sonra Azərbaycanda milli-mənəvi, dini dəyərlərə qayıdış prosesinin başladığını deyən sədr müavini bu işdə jurnalistlərin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

Fasilədən sonra seminar-treninqdə bir neçə maraqlı məruzə dinlənilib.

QMİ-nin sədr müavini Qəmərxanım Cavadlı "Media və din: stereotiplər və problemlər", DQİDK-nın sədr müavini Gündüz İsmayılov "Azərbaycanda mövcud dini durum və media", Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva "Media və din: informasiya və maarifləndirmə" mövzularında məruzələrlə çıxış ediblər.

Sonra mövzular ətrafında geniş müzakirələr aparılıb, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# CENEVRƏDƏ AZƏRBAYCANIN MƏDƏNİYYƏTLƏRARASI DİALOQ MODELİNƏ HƏSR EDİLMİŞ KONFRANS OLUB



Noyabrın 7-də BMT-nin Cenevrədəki baş qərargahında "Mədəniyyətlərarası dialoq vasitəsilə konfliktlərin qarşısının alınması: Azərbaycan modeli" adlı beynəlxalq konfrans keçirilib. Tədbir Avropa Azərbaycanlıları Cəmiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi tərəfindən BMT Sülh Həftəsi çərçivəsində təşkil edilib.

Konfransda çıxış edən DQİDK-nın şöbə müdiri Nicat Məmmədli Azərbaycanda cəmiyyət tərəfindən irəli sürülən dini dialoq təşəbbüslərindən, həmçinin müxtəlifliyin, mədəniyyətlərarası dialoqun və dini tolerantlığın təşviqinə yönəlmiş dövlət siyasətindən danışıb. Avropa Azərbaycanlıları Cəmiyyətinin direktoru Lionel Zetter və İtaliyanın Sapienza Universitetinin professoru Daniel Vinçelli, Parlamentlərarası İttifaqın Xarici əlaqələr üzrə direktoru səfir Anda Kristina Filip, İnsan Hüquqları və Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru, səfir İdris Cəzairi də öz çıxışlarında münaqişələrin həllində mədəniyyətlərarası dialoqun rolundan və Azərbaycanın mədəniyyətlərarası dialoqa beynəlxalq miqyasda verdiyi töhfədən söhbət açıblar.

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏNİN BAŞLICA YOLLARI: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ"



Noyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəki Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda seminar-treninq keçirilib.

Daşüz kənd tam orta məktəbində keçirilən tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev, Dövlət Komitəsinin əməkdaşları Namiq Talıbov, Taleh Abdullayev, Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov, məktəbin direktoru Anjelixa Hüseynova, müəllim və şagird kollektivi, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

***



Eyni mövzulu seminar-treninq DQİDK və Ağstafa RİH-in birgə təşkilatçılığı, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Rasim Tağıyev, Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə, Ağstafa RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubova, rayon polis şöbəsinin rəis müavini mayor Cabir Ələsgərov, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə noyabrın 6-da baş tutub.

***

Noyabrın 16-da DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Qobustan qəsəbə Mədəniyyət evində keçirilən analoji tədbirdə isə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev, Qaradağ RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Munis Bayramov, Qobustan qəsəbə ziyalıları, hüquq-mühafizə orqanlarının əməkdaşları, din xadimləri, müəllim və şagirdlər, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Daha bir tədbir noyabrın 22-də DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Ələt qəsəbəsindəki 110 nömrəli tam orta məktəbdə baş tutub. Seminar-treninqdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Komitənin Bakı şəhəri üzrə



şöbəsinin baş məsləhətçisi Samir Yoldaşov, Qaradağ RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Yusif Nəsirov, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Qaradağ Rayon İdarəsinin əməkdaşı Arif Hacıyev, Qaradağ Rayon Polis İdarəsinin əməkdaşı Babək Abbasov, qəsəbə ziyalıları, müəllim və şagirdlər, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Noyabrın 23-də DQİDK və Sabunçu RİH-in birgə təşkilatçılığı ilə keçirilən seminar-treninq də "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusuna həsr olunub.

Nardaran qəsəbəsindəki 130 saylı tam orta məktəbdə keçirilən tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin böyük məsləhətçisi Aslan Sultanov, Sabunçu RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov, məktəbin müəllim və şagirdləri iştirak ediblər

***

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin böyük məsləhətçisi Aslan Sultanov, Sabunçu RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov, məktəbin direktoru, müəllim və şagirdlərinin iştirakı ilə noyabrın 24-də Maştağa qəsəbəsindəki 255 saylı tam orta məktəbdə də analoji tədbir keçirilib.



***

"Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda daha bir seminar-treninq noyabrın 27-də DQİDK və Göyçay RİH-in birgə təşkilatçılığı ilə rayonun Potu kənd tam orta məktəbində təşkil olunub. Həmin tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Komitənin əməkdaşı Tərxan Paşazadə, Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, Göyçay RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüsal Zöhrabov, Qafqaz Müsəlmanları İdarəsinin Göyçay rayonu üzrə səlahiyyətli nümayəndələri – Rəsul Kazımov, Cavid Səfərov, din xadimləri, müəllim və şagirdlər iştirak ediblər.

Seminar-treninqlərdə dövlətin dinə və din xadimlərinə göstərdiyi qayğıdan danışılıb. Eyni zamanda, natiqlər dini radikal və ekstremist qrupların təbliğat və yayılma metodlarına toxunublar, bunlara qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dəyərlərinin düzgün təbliğ edilməsinin əhəmiyyətindən danışıblar.

Çıxışlarda, həmçinin 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının önəminə toxunulub, bu təşəbbüsün İslam dünyasına mesaj xarakteri daşıdığı bildirilib. Qeyd olunub ki, müsəlman aləmində baş verən proseslər İslam həmrəyliyini zəruri edir və bu həmrəylik dinlərarası dialoq üçün gözəl imkan kimi dəyərləndirilməlidir.

Seminar-treninqlərdə Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmi nümayiş etdirilib, həmçinin iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# İSVEÇİN DÖVLƏT AGENTLİYİNİN SƏDRİ QUBADA OLUB



Noyabrın 29-da İsveç Krallığının Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Qoransonun rəhbərliyi ilə həmin ölkədə fəaliyyət göstərən dini icma üzvlərindən ibarət nümayəndə heyəti Quba rayonunda səfərdə olub.

Nümayəndə heyətini İsveçin Azərbaycandakı səfiri İnqrid Tersman, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Rəfi Qurbanov, Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev və Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Tariyel İbrahimov müşayiət ediblər.

Qonaqlar dağ yəhudilərinin kompakt yaşadığı Quba rayonu Qırmızı qəsəbə ərazisində yerləşən "Giləki" və "Altı günbəz" sinaqoqları ilə tanış olublar. Onları Quba Rayon İcra Hakimiyyəti başçısının qəsəbə üzrə nümayəndəsi Pisax İsakov qarşılayıb və dağ yəhudilərinin Azərbaycanda yaşam tərzi, Azərbaycan dövlətinin və xalqının onlara tolerant münasibətini xüsusi vurğulayaraq qeyd edib ki, əsrlərlə burada yaşayan dağ yəhudiləri özlərini heç vaxt Azərbaycan xalqından kənarda, ayrı şəkildə hiss etməyiblər. Yəhudilər tarixin bütün dövrlərində Azərbaycan dövlətinin yanında olub və onun yeritdiyi siyasəti dəstəkləyiblər.

Daha sonra qonaqlar Quba şəhərində yerləşən Quba Soyqırımı Memorial Kompleksində olublar. Kompleksin direktoru Səidə Abasova nümayəndə heyətini qarşılayaraq memorial abidə haqqında geniş məlumat verib.

# MƏHKUMLAR ÜÇÜN TİKİLƏN YENİ MƏSCİD İSTİFADƏYƏ HAZIRDIR

Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ilə birgə cəzaçəkmə müəssisələrində maarifləndirici tədbirləri davam etdirir.

Növbəti tədbir "Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda 11 saylı cəzaçəkmə müəssisəsində keçirilib.

Tədbirdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin rəis müavini - ədliyyə polkovnik-leytenantı İntiqam Əliyev, DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov və AMEA-nın Şərqşünaslıq İnstitunun əməkdaşı, ilahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibov iştirak edib.

Müəssisədə məhkumların mənəvi dəyərlərini həyata keçirmək üçün yaradılmış şəraitdən söz açan İntiqam Əliyev yeni inşa olunan məsciddən danışıb. Bildirib ki, yüksək keyfiyyət və memarlıq üslubunda ərsəyə gələn məscid heç də kənd və şəhərlərimizdəki ibadət ocaqlarından geri qalmır.

DQİDK-nın şöbə müdiri Nahid Məmmədov ölkəmizdə mövcud dini durum barədə məlumat verib. Tolerantlıq gününün qeyd edildiyi ərəfədə Azərbaycanın özünəməxsus dəyərlərindən biri olan birgəyaşayış ənənəsinin dünya üçün örnək olmasından bəhs edib. Prezident İlham Əliyevin İslam Həmrəyliyi ideyası ilə bağlı irəli sürdüyü təşəbbüsün mahiyyətində danışıb.

İlahiyyatçı alim Aslan Həbibov məscid ədəbindən, məscidin müsəlman həyatındakı rolundan söz açıb. Bildirib ki, məscid müsəlman həmrəyliyinin və vəhdətinin əsas qalasıdır və orada fitnə yaratmaq, ayrı-seçkilik salmaq qəti qadağandır.

Daha sonra qonaqlar müəssisədə istifadəyə hazır məscidlə tanış olublar. Bildirilib ki, məsciddə yüksək səviyyədə tikinti işləri ilə yanaşı, dəstnamazxana, ayrıca mərasim yeri, mətbəx, kitabxana da inşa edilib. Eyni anda 250-dən çox məhkumun ibadət edə biləcəyi məsciddə istilik və soyutma sistemləri quraşdırılıb, akustika, milli-mənəvi dəyərlərimizin tərənnüm edildiyi dekorasiya işləri görülüb.

# BALAKƏN RAYONUNUN MULTİKULTURAL ƏNƏNƏLƏRİ

Bu gün dünyada ciddi narahatlıq doğuran məsələlərdən biri də qlobal miqyasda milli, dini və irqi zəmində münaqişələrin artması, xalqlar arasında inteqrasiyanın zəifləməsidir. Sevindirici haldır ki, hər zaman dünyaya tolerantlıq və dialoq məkanı olaraq göstərilən Azərbaycanda bu gün multikultural dəyərlər yaşamaqda və inkişaf etməkdədir. İqtisadi inkişafına görə regionun aparıcı dövləti sayılan Azərbaycan, eyni zamanda, millətlərarası və dinlərarası dialoq baxımından da nümunəvi ölkə kimi tanınır. Ölkəmizdə milli və dini müxtəliflik fərq yaradan amil kimi deyil, əksinə, tolerantlıq, mədəni dialoq mühitinin əsas ünsürləri kimi çıxış edir.

Azərbaycanda multikulturalizm və dini tolerantlıq siyasətinin formalaşması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycanın müstəqilliyinin ilk dövrlərində ölkəmizin gələcək uğurlu inkişafı üçün multikulturalizmi dövlət siyasəti kimi irəli sürmüşdür. O, tarixən Azərbaycanda mövcud olan çoxmədəniyyətlilik və tolerantlıq ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni müstəviyə keçirmişdir. Ümummilli Liderin müxtəlif din və mədəniyyətlərə tolerant münasibəti, şəxsən özünün xaraktercə tolerant olması onun həyat və fəaliyyətində həmişə özünü büruzə vermişdir. Ulu Öndər 1993-cü ildə prezident seçildikdən sonra oktyabrın 10-da andiçmə mərasimindəki nitqində Azərbaycanda mövcud olan dinlərin həmişə bərabər hüquqa malik olduğunu vurğulamış, dinlər və mədəniyyətlər arasındakı bu münasibətləri daim qoruyacağına and içmişdir: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır..."

Dövlət strategiyası kimi əsasını Heydər Əliyevin qoyduğu bu zəngin multikulturalizm ənənəsi hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ləyaqətlə davam etdirilir. Ölkəmizdə demokratik-hüquqi prinsiplərin, din və vicdan azadlığının ardıcıl həyata keçirilməsinin təminatçısı olan dövlət başçımızın qayğı və diqqəti sayəsində dini baxışından asılı olmayaraq, bütün vətəndaşlara bərabər münasibət bəslənilir, ayrı-seçkiliyə yol verilmir, insanlara dini ayinləri sərbəst yerinə yetirmək üçün şərait yaradılır. Məhz Azərbaycanda dini sahəyə münasibətdə yürüdülən müdrik siyasətin nəticəsidir ki, dünya ictimaiyyəti, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlar ölkəmizin sülhpərvərliyini, tolerantlığını, başqa dinlərlə dialoqa hazırlıq ruhunu etiraf edir, bunu yüksək dəyər kimi qiymətləndirirlər.

Bu gün Azərbaycan etnoqrafik rəngarəngliyi ilə seçilir. Onun ərazisində Azərbaycan türkləri ilə bərabər, yəhudilər, tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, buduqlular, ingiloylar kimi etnik qruplar yaşayırlar. Azərbaycanda yaşayan hər bir xalq öz etnik xüsusiyyətini saxlamaqla yanaşı, digər xalqların və etnik qrupların həyat tərzində, məişətində, adət-ənənəsində, mədəniyyətindəki bir çox mütərəqqi amilləri əxz edərək, onları qarşılıqlı surətdə inkişaf etdirmişdir.

Qədim odlar diyarının etnoqrafik baxımdan zəngin rayonlarından biri ecazkar təbiətə malik olan Balakən rayonudur. Ölkəmizin "şimal-qərb qapısı" sayılan Balakən rayonu öz qədim tarixi abidələri, yaşayış məskənləri ilə yanaşı, ərazisində yaşayan azsaylı xalq, milli azlıq və etnik qrupların zənginliyi ilə də seçilir. Milli və dini ayrı-seçkiliyin heç zaman müşahidə edilmədiyi, hər kəsə eyni münasibətin sərgiləndiyi bu məkanda multikultural dəyərlər diqqət çəkəndir. Rayonda 20-yə qədər milli azlığın və azsaylı xalqın nümayəndəsi mehriban qonşuluq şəraitində yaşayır, işləyir, mədəniyyətlərini, adət-ənənələrini qoruyub saxlayırlar. Rayonda bu xalqların bir çox adət-ənənələri əsrlərin süzgəcindən keçərək bir-birinə daha da yaxınlaşıb. Balakən rayonunda milli azlıqların nümayəndələri yerli icra orqanlarında rəhbər vəzifələri tutur. Avarların yaşadığı Mahamlar, Mazımçay, Qabaqçöl qəsəbəsində avar dili, ingiloyların yaşadığı İtitala kəndində isə gürcü dili məktəblərin ibtidai siniflərində tədris olunur.

Qeyd edək ki, 20-dək xalqın nümayəndəsinin Balakəndə çiyin-çiyinə yaşaması mədəni irsin zənginləşməsinə, xalq sənətinin, o cümlədən hər xalqın öz folklorunun inkişafına da müsbət təsir göstərmişdir. Vurğulamaq lazımdır ki, azsaylı xalqların dilinin, mədəniyyətinin, məişət həyatının qorunub saxlanmasında onların yaratdıqları musiqi və folklor kollektivlərinin rolu daha böyükdür. Bu mənada rayonda ingiloyların "Nənələr", "Şəlalə" folklor qrupu, avarların "Qubek", "Hassa" rəqs qrupu, "Cahan" folklor qrupu fəaliyyət göstərir. Milli irsin qorunub saxlanması, eləcə də əhaliyə göstərilən mədəni xidmət işində Balakən rayonunda yaşayan hər etnosun, azsaylı xalqların nümayəndələrinin adət-ənənələri təbliğ olunur.

Məhz sadalananların nəticəsidir ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları Proqramı" çərçivəsində 2014-cü ildə "Balakən Azərbaycanın Folklor Paytaxtı" elan edilmişdir. Bununla əlaqədar, 2014-cü il sentyabrın 25-26-da rayonda "Balakən payızı" folklor və turizm festivalı keçirilmişdir. Festivalda Gürcüstanın və Dağıstanın folklor və rəqs kollektivləri, Şəki rayonunun Şorsu kənd mədəniyyət evinin "Abay" rəqs kollektivi, Ağdam rayonunun "Şur" ansamblı, Masallı rayonunun "Halay" rəqs qrupu, Qax rayonunun "Peşvebi", İsmayıllı rayonunun "İvanovka", Zaqatala rayonunun "Qızılgül" folklor kollektivləri proqramla çıxış etmişlər. Şübhəsiz ki, folklor nümunələrinin üzə çıxarılmasında, qorunub gələcək nəsillərə ötürülməsində keçirilən bu cür tədbirlərin böyük əhəmiyyəti var.

Göründüyü kimi, Azərbaycan adlı məmləkətin etnik mənzərəsi göyqurşağı kimi rəngarəngdir... Multikulturalizm, tolerantlıq, dözümlülük şəraitində yaşayan, qaynayıb qarışan xalqlar Azərbaycançılıq ideologiyasının əsas qayəsinə, məqsədinə əbədi olaraq bağlıdırlar. Burada kimsə digərinin haqqını pozmağa, biri digərinin milli mədəniyyətini, adət-ənənəsini qoruyub saxlamağa mane olmağa çalışmır. Onlar bir ailədirlər: azərbaycanlı. Elə dünyaya da məhz Azərbaycançılıq məfkurəsindən baxırlar...

**Fariz NƏCƏFOV,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müdavimi*

# QISA-QISA



**1 noyabr** – “Uşaq hüquqları aylığı” çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri “Cümə” məscidində tədbir keçirilib.

***

**1 noyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara RİH-in birgə təşkilatçılığı ilə rayonun Sipiyəpart kənd tam orta məktəbində “Uşaq hüquqları aylığı” çərçivəsində “İslamda uşaq hüquqları” mövzusunda tədbir baş tutub.

***

**1 noyabr** – DQİDK və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının birgə təşkilatçılığı ilə Şəkidə yerləşən “N” saylı hərbi hissədə “Dini radikalizmlə mübarizənin yolları” mövzusunda tədbir keçirilib.

***

**2 noyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə Günəşli kənd tam orta məktəbində “Uşaq hüquqları aylığı” çərçivəsində növbəti maarifləndirmə tədbiri təşkil olunub.

***

**2 noyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara Rayon Təhsil Şöbəsi və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə noyabrın 2-də Astara şəhər C.Babayev adına 3 saylı tam orta məktəbində “İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və təhsil” adlı tədbir keçirilib.

***

**2 noyabr** – Füzuli RİH və DQİDK-nın birgə təşkilatçılığı ilə Füzuli rayon Horadiz şəhər 2 saylı tam orta məktəbdə “Uşaq hüquqları aylığı” ilə bağlı maarifləndirmə tədbiri təşkil olunub.

***

**3 noyabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi, və Masallı Regional Kollecinin birgə təşkilatçılığı ilə “Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması” mövzusunda tədbir baş tutub.

***

**3 noyabr** - Qazax rayon 4 saylı orta məktəbində Ombudsmanın “Uşaq hüquqları aylığı” çərçivəsində Qazax RİH və DQİDK-nın birgə təşkilatçılığı ilə tədbir keçirilib.

***

**7 noyabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi RİH-in birgə təşkilatçılığı ilə Ağcabədi rayonunda dövlət-din münasibətlərinə həsr olunmuş seminar-treninq keçirilib.

***

**7 noyabr** – Təhsil Nazirliyi və DQİDK-nın birgə təşkilatçılığı ilə Nizami rayonunda yerləşən 10 nömrəli tam orta məktəbdə “Milli-mənəvi dəyərlər və İslam” mövzusunda maarifləndirici tədbir təşkil olunub.

***

**8 noyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı RİH-in birgə təşkilatçılığı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzində “İslam həmrəyliyi və vətənpərvərlik” mövzusunda maarifləndirici tədbir keçirilib.

***

**8 noyabr** – “Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında” Fəaliyyət Planına uyğun olaraq Təhsil Nazirliyi və DQİDK-nın birgə təşkilatçılığı ilə Binəqədi rayonunda yerləşən 100 nömrəli tam orta məktəbdə “Dövlət bayrağı milli kimliyimizi xarakterizə edən atribut kimi” mövzusunda maarifləndirici tədbir baş tutub.

***

**10 noyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba Regional Mərkəzinin və Siyəzən RİH-in birgə təşkilatçılığı ilə Siyəzən şəhəri 3 saylı tam orta məktəbdə “Uşaqlar bizim gələcəyimizdir” adlı tədbir keçirilib.

***

**13 noyabr** – Təhsil Nazirliyi və DQİDK-nın birgə təşkilatçılığı ilə Nərimanov rayonunda yerləşən məktəb-lisey kompleksində “Milli-mənəvi dəyərlərin təbliği” mövzusunda maarifləndirici tədbir baş tutub.

***

**13 noyabr** – Şirvan şəhəri Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və DQİDK-nın birgə təşkilatçılığı ilə 16 noyabr Beynəlxalq Tolerantlıq Günü münasibətilə “İslamda vətən sevgisi” mövzusunda tədbir keçirilib.

***

**13 noyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu R.Dadaşov adına Sütəmurdov kənd tam orta məktəbində “İslam həmrəyliyi, vətənpərvərlik və təhsil” adlı maarifləndirici tədbir baş tutub.

***

**13 noyabr** – Masallı rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və DQİDK-nın birgə təşkilatçılığı ilə 16 noyabr Beynəlxalq Tolerantlıq Günü münasibətilə “Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyi ideyasının rolu” mövzusunda tədbir təşkil olunub.

***

**14 noyabr** – Zaqatala rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti



